***Ülkər ƏLİYEVA***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***AMEA Folklor İnstitutunun "Klassik folklor"***
***şöbəsinin aparıcı elmi işçisi***
***e-mail: ulker63@mail.ru***
***ORCID: 0000-0002-2989-8702***
*https://doi.org/10.59849/2309-7949.2025.3.117*

# ŞƏHƏR FOLKLOR MÜHİTİNDƏ DAVRANIŞ FORMULUNDAN TÖRƏYƏN KİÇİK JANRLAR

**Açar sözlər:** Şəhər folklor mühiti, davranış formulu, kiçik janrlar, ənənəvi janrlar, mərasimlər.

**РЕЗЮМЕ**

**МАЛЫЕ ЖАНРЫ,ПРОИЗВОДНЫЕ ОТ ФОРМУЛЫ ПОВЕДЕНИЯ В ГОРОДСКОЙ ФОЛЬКЛОРНОЙ СРЕДЕ**

Изучение фольклора в городской фольклорной среде является одним из важных вопросов современной фольклористики. Для этого следует взять за основу специфику городской среды. Здесь пространственная инстанция и содержан ие должны дополнять друг друга. В данном исследовании были изучены мелкие жанры, которые возникли из формулы поведения в городской фольклорной среде. На самом деле специфика этих малых жанров, которые были представлены нами, заключаются в том, что эти жанры возникают из стиля поведения. Таким образом, жанры, которые относятся к таким мелким жанрам как шутки, насмешки, дразнения, намекания, переходят в другие крупные и мелкие жанры, принятые в фольклоре, и переносятся как созданные жанры. В текстах подобные жанры проявляются внутри многих других жанров. В частности, это исследование было основано на прослеживание перешучиваний, насмешек, дразнений и намеканий, которые возникли из формулы поведения в таких жанрах как пословицы, рыночный, церемониальный фольклор, площадные представления, анекдоты, анекдоты Моллы Насреддина, мейхана (азербайджанский народный музыкально-поэтический жанр, который представляет собой импровизационные речитативные выступления, похожие на современный рэп, форма устного творечтва, в которой исполнители (мейханщики) соревнуются в остроумии и ритмической импровизации, часто на заданную тему), церемонии, относящиеся к празднику Новруз, уличная музыка, относящейся к городской среде. Эти жанры были специально выбраны и исследованы с точки зрения наибольшего выявления принадлежности к городской среде. В исследовательской работе в тоже время было выявлено, что городская фольклорная среда также возникает и на основе определения типа города. Таким образом церемонии праздника Новруз, распространены не только в нащей стране, а также и в различных местах мира как обряды, которые проводятся восточными и тюрксикми народами. Однако в данном исследовании отмечено, что подобные церемонии, в то же время, имеют имеют городской тип. Эти церемонии, которые проводятся на городских площадях, проспектах и т.д., уже отдельно показывают свою принадлежность также и к городской фольклорной среде. Исследование новое и оригинальное. Надеемся, что оно будет положительно воспринято научным сообществом.

**Ключевые слова:** Городская фольклорная среда, формула поведения, малые жанры, традиционные жанры, церемонии.

**SUMMARY**

**SMALL GENRES DERIVED FROM THE FORMULA OF BEHAVIOR IN THE URBAN FOLKLORE ENVIRONMENT**

The study of folklore in the urban folklore environment is one of the important issues in modern folklore studies. However, the specificity of the urban environment should be taken as a basis. Here, the spatial instance and content should complement each other. In this study the small genres derived from the formula of behavior in the urban folklore environment are studied. In fact, the specificity of these small genres that are presented is also that these genres emerge from the way they behave. In this context, minor genres such as teasing, mockery, provocation and witty remarks – typically classified as subgenres – are often integrated into both major and minor genres within the folklore tradition, functioning as derivative or embedded forms. These elements frequently manifest within a wide range of other genres in folklore texts. This study specifically examines the presence and function of teasing, mockery, provocation and witty remarks originating from behavioral patterns within various folkloric genres, including proverbs, market folklore, ritual folklore, street performances, anecdotes, Molla Nasreddin tales, meykhana (improvised oral poetry), Novruz celebrations and urban street music. These genres have been specifically selected and examined due to their distinctive tendency to reflect and reveal characteristics of the urban environment. The research also establishes that the urban folklore environment emerges based on the formation and identification of the urban type itself. For instance, the Novruz celebrations are widespread not only in our country but also across various regions of the world as rituals observed by Eastern and Turkic peoples. However, this study also emphasizes that these rituals possess an urban form as well. The fact that such ceremonies are held in urban spaces such as city squares, avenues, and similar settings demonstrates their relevance to the urban folklore environment. The research is both novel and original in its approach. It is hoped that it will be received positively by the academic community.

**Keywords**: Urban folklore environment, behavioral formula, minor genres, traditional genres, rituals.

Şəhər folklor mühitini özündə ehtiva edən folklor janrları arasında kiçik janrların meydana gəlməsi təsadüfi xarakter daşımır. Dinamik ünsiyyət formasında aşkara çıxan folklor deyimlərinin nəzəri cəhətdən öyrənilməsində janr spesifikasının izlənilməsi təbiidir. Toplumun fəaliyyət sferası təbiidir ki, janr törədilməsini deyil, münasibət səviyyələrini əks etdirir. Məhz bu kimi davranış modellərinin ifadə tərzinə elmi cəhətdən yanaşma bu canlı folklor örnəklərinin janr kimi öyrənilməsini zəruri edir. Müasir folklorşünaslığın problematik vəzifələrindən biri də məhz budur. Təbiidir ki, müxtəlif deyimlərin yaranması məkan etibarilə dominant deyil. Bu deyimlər hər bir ərazidə yarana bilər. Ünsiyyətdə meydana çıxan kiçik janrlar heç də spesifik olaraq yalnız bir məkana aid ola bilmir. Şəhərdə yaranan folklor nümunəsini əyalətdən gələn canlı subyekt də həyata keçirə bilər və yaxud əksinə olaraq, əyalətdə şəhərdən gələn bir folklor daşıyıcısı da bu deyimləri yaya bilər. Ancaq burada onu da inkar etmək olmaz ki, folklor indvidual hadisədir. Fərdin özündə daşıdığı folklorik davranış sterotipi də inkar oluna bilməz. Kəndə şəhər təəssüratını, şəhərə kənd ovqatını gətirən şəxslər folklorun zənginləşməsində mexaniki rol oynayırlar. Folklorun çulğalaşması nəticəsində yaranan folklor örnəkləri cilalanıb daha kamil səviyyədə meydana gəlmiş olur. Şəhər folklor mühiti məhz şəhər infrastrukturunda, şəhər tipli arealda reallaşaraq folklorun funksionallaşma səbəblərini aydın şəkildə göstərir. Bazarlarda, fabrik və za-

vodlarda, restoranlarda, idarələrdə, xəstəxanalarda, geniş prospekt, park və meydanlarda və bu kimi şəhər ərazisində yerləşən məkanlarda inkişaf edən folklor janrları şəhər folklor mühitinə aid edilir. Bu kontekstdə A.Nəbiyev göstərir ki, sənaye mərkəzləri genişləndikcə şifahi yaradıcılıqda şəhər folklorunun müxtəlif nümunələri yarandı [11, s. 614].

Əlbəttə, urbanizasiyanın, sənayeləşmənin yeni dəyişiklikləri eyni zamanda müəyyən qədər məzmun dəyişikliklərini də meydana çıxardı. A.Nəbiyev bu barədə qeyd edir ki, şəhər mühitində baş verən demokratik hərəkat, inqilabi mübarizələr bu məzmunlu mətnləri törətdi. Tədqiqatçı daha çox bu aspektdə inqilabi dastanların yarandığını qeyd edir, bundan əlavə, göstərir ki, şəhər folklorunda yeni nəğmələr meydana gəldi. Bunlardan "Bazar nəğmələri", "Nöyütçü nəğmələri", Zorxana, Palançı, meyxana oxumaları və s. xalq arasında xüsusilə geniş yayıldı [11, s. 614, 615].

Təbiidir ki, şəhər mühitində yaranan bir çox folklor sahələri kimi kiçik janrlarda da müxtəlif örnəklər meydana çıxdı. Şəhərləşmənin aktiv funksiyaları bu kimi nümunələrin reallaşmasını zəruriləşdirdi. Zarafatlaşmalar, dolamalar, **cırnatmalar, atmacalar** və s. bu kimi kiçik janrlarda müşahidə olunan örnəklər buraya aid edilə bilər. İlkin baxışda adi görünən bu kimi nümunələr əslində şəhər folkloru baxımından spesifik olaraq araşdırma tələb edir. Mövzu etibarilə bu kimi kiçik janrların törəndiyi nümunələrə diqqət yetirmək üçün, təbiidir ki, öncə bazar instansiyası ilə bağlı yaranan deyimləri gözdən keçirmək lazımdır. Çünki dastan janrı kimi böyük auditoriyalarda, el-oba yığnaqlarında, toy mərasimlərində və bu kimi geniş məclislərdə meydana gələn böyük janrdan [4, s. 31] daha çox, bazar məkanında bədahətən meydana gələn janrlar kiçik janrların bazasını təşkil edir. Ancaq onu da yaddan çıxarmaq olmaz ki, kiçik janrlar əksər halda böyük janrların daxilində mövcud olub, bir növ, törədilmə funksiyasında çıxış edir. Biz törədən funksiyasında çıxış edən atalar sözlərinin tərkibində ilkin olaraq bu kimi örnəkləri müşahidə edə bilirik.

"Bazara gedər – yağış yağar, dəyirmana gedər – qırğın olar;
"Belə matahın var, Cəfərabad bazarına apar";
"Gördüyün küllü kömbədi, bazara çıxıb qoğal olub";
"Həftədə bir bazar, onu da dərviş pozar";
"Kasıba bazarın tulası da hürər";
"Təzə gəldi bazardan, köhnə düşdü nəzərdən" [1, s. 71, 72, 192, 207, 248, 386] və s.

Göründüyü kimi, zarafat kontekstində "Gördüyün küllü kömbədi, bazara çıxıb qoğal olub", dolamalara aid "Bazara gedər – yağış yağar, dəyirmana gedər – qırğın olar", cırnatmalara aid "Belə matahın var, Cəfərabad bazarına apar", atmacalara aid "Həftədə bir bazar, onu da dərviş pozar", "Kasıba bazarın tulası da hürər", "Təzə gəldi bazardan, köhnə düşdü nəzərdən" deyimlər müxtəlif məzmun ifadə etməklə bərabər, bu kimi kiçik janrlarda poetik baxımdan diqqət çəkir.

Şəhər folklor mühitini ifadə edən meydan tamaşalarında da bu kiçik janrların müəyyən nümunələrini görə bilirik. Öncə qeyd edək ki, meydan tamaşaları əsasən mərasimlərdə şəhər məkanlarında icra olunduğu üçün şəhər folklor mühitinə aid edilə bilir. İ.Rəhimli yazır ki, açıq havada oynanılan, el-oba məskunlaşan yurdun mərkəzində, şəhər meydançalarında, karvansaraylarda, bazar içində, küçələrdə, kənd əkin yerlərinin yanında göstərilən kütləvi xalq tamaşalarına ümumiləşdirilmiş şəkildə, sənət növü kimi "meydan teatrı" deyilir [14, s. 6 ].

A.Nəbiyev göstərir ki, meydan tamaşalarını şərti olaraq Cıdır tamaşaları, Zorxana tamaşaları, Əyləncə tamaşaları, Qaraçı tamaşaları, Fərdi tamaşalar kimi bir neçə qrupa ayırmaq olar [ 11, s. 384 ].

A.Nəbiyev daha sonra məsxərə tamaşalarını da meydan tamaşalarına aid edir ki, [11, s. 408], fikrimizcə, elə bu tamaşaları əyləncə tamaşalarının tərkibində məzmun və növ etibarilə də öyrənmək mümkündür.

Meydan tamaşaları kütləvi tamaşalar olduğu üçün aydındır ki, bu tamaşalarda tədqiqatımızda olan kiçik janrlar bu və ya dolayı şəkildə özünü göstərməmiş deyil. Ancaq bu tamaşalar arasında Zorxana və Məsxərə tamaşalarında bu davranış formuluna daha çox rast gəlinir. Zorxana tamaşaları böyük şəhərlərdə təşkil olunması baxımından və bu mərasimlərdə şəhər meydanları seçildiyi üçün şəhər folklor mühitinin spesifik çevrəsinə daxil olur. Eyni zamanda zorxanalar digər yerlərdən fərqli olaraq, böyük şəhərlərdə daimi fəaliyyət göstərirdilər ki, bu da şəhər mühitinin universum məzmununu daha da gücləndirir. Zorxana tamaşasında kiçik bir mətni nəzərdən keçirək:

Əl-qolunu qatdadaram, ay oğlan!
Bağrını çatdadaram, ay oğlan!
Nişanlını alıb qaçaram, ay oğlan,
Bəlalı başına bəlalar açaram, ay oğlan [12, s. 90, 91 ].

A.Nəbiyev göstərir ki, bu nəğmələr hərbə-zorba səciyyəli olardı. Bu kimi hərzə-hərzə danışıqdan qeyzlənən cavanlar meydana girib söyləyərdilər:

Hay çəkərəm, zorxana titrər hayımdan,
Qara pəlvan elə vurram,
Kərpic düşər sarayından.
Al qurşaqvu dolayaram boynuva,
Adam gəlməz bir də sənin oynuva.
Dınqaz, dınqaz dınqıldama, a pəlvan,
Hərzə-hərzə meydan üstə zınqıldama, a pəlvan [12, s. 91 ].

Göründüyü kimi, zorxana tamaşasında işlək olan bu kiçik mətndə dolamalar, cırnatmalar, atmacalar geniş ifadə olunur.

Məsxərə tamaşalarında da biz bu kimi situasiyanın poetik təzahürünü görürük. A.Nəbiyev göstərir ki, məsxırəbaz ada uyğun acıtma deyərdi: əvvəldə adı bir neçə dəfə təkrar eləyir, sonra acıtmanı söyləyərdi:

Həsənağa, Həsənağa, Həsənağa, Həsənağa,
Doldu yarağa,
Mindi ulağa.

Məsxərəbaz bundan sonra Həsənağanın geyimini, boyunu, yerişini, danışığını, gülüşünü, hədə-qorxu gəlməsini məsxərəyə qoyar, bir çox hallarda məsxərəyə qoyulan dava salmaq istər, tez onu tutub ağaca bağlayardılar. Məsxərəbazı hədələmək, döymək qadağan idi [12, s. 109 ].

Göründüyü kimi, qədim ritual elementləri olan bu meydan tamaşasında zarafatlaşmalar, dolamalar, cırnatmalar, atmacalar kifayət qədər geniş yer alırdı. E.Aslanov məzhəkə tamaşaları haqqında yazır ki, Lotu və məsxərəbaz repertuarının əsasını təşkil edən bu tamaşa növündə qaravəlli tamaşalarından fərqli olaraq şit və kobud zarafatlara daha çox yer verilir [3, s. 137].

Meydan tamaşaları əsas etibarilə şəhər meydanlarında keçirilməsi baxımından şəhər folklor mühitini əhatə edir ki, bu tamaşalarda bu kimi davranış formullarını eyni aspektdən tədqiqata cəlb etməyi zəruri hesab etdik.

Şəhər mühitinə aid lətifələrdə də davranış formulunun kiçik janr olaraq işarələnən nümunələrini görmək olur. Zarafatlaşma, dolama, hətta cırnatma kontekstində şəhərlə bağlı aşağıdakı Molla Nəsrəddin lətifəsinə lətifələrin səciyyəvi örnəyi olaraq nəzər yetirək:

"Deyirlər ki, Molla birinci dəfə kənddən şəhərə gələndə şəhərin qalalarını, bürclərini görüb heyran-heyran baxırmış. Bunu görən məmurlardan biri Mollanı ələ salmaq məqsədilə yaxınlaşıb ondan soruşur:

– Nə olub, a kişi!? Dəvə nalbəndə baxan kimi nə gözünü zilləyib baxırsan?

Molla deyir:

– Vallah, mən kənd adamıyam. Şəhərə birinci dəfədi gəlirəm. Baxıram ki, evlər, küçələr, bağlar, dükanlar, hər şey var. Özləri də çox gözəldilər. Amma, bax, şəhərin ora-burasından göyə dikələn bu şeylər nədi, başa düşə bilmirəm.

Məmur yaxındakı bürclərdən birini göstərib deyir:

– Niyə başa düşmürsən? Bunlar bizim şəhərin başının tükləridi, belə dik-dik durublar.

Molla başa düşür ki, məmur onu ələ salır. Bir ona baxır, bir dönüb bürcə baxır, bilmir nə desin. Elə bu dəqiqədə şəhər hakimi beş-on adamla bürcün üstünə çıxıb ətrafa baxmağa başlayır. Molla məmura deyir:

– Şəhərinizə sözüm yoxdu, amma belə ki mən görürəm, deyəsən, şəhərinizin başını təmiz saxlamırsınız.

Məmur soruşur:

– Niyə?

– Bir bax, gör, bir tükün üstünə neçə bit dırmaşıb... [9, s. 53 ].

Bu mətndə, qeyd etdiyimiz kimi, davranış kodeksinin janr olaraq meydana çıxan ifadə tərzi kimi zarafatlaşmalar, dolamalar, cırnatmalar, atmacalar yer almaqla bərabər, eyni zamanda məlum olur ki, şəhər folklor mühiti yalnız məzmun etibarilə şəhərə aid olan nümunələri özündə cəmləmir, eyni zamanda ortaq mədəniyyət daşıyıcılığında şəhər stiuasiyasında meydana çıxan örnəkləri də səciyyələndirir. Burada artıq mətnlərin kontaminasiyası kənd-şəhər, şəhər-kənd mühitinin bağlılığında aşkarlanır və məkan statusu folklor arealını müəyyənləşdirərək məz-

muna da təsir edir. Bu cəhətdən dinamik folklor örnəkləri mühit olaraq konkret məkana aid edilə bilir.

Biz şəhər mühitinin qabaqcıl xalq janrı kimi meyxana örnəklərinə də nəzər yetirməyi vacib hesab edirik. Məlumdur ki, meyxanalar əsas etibarilə Bakı əhatəsində meydana gəlmişdir [15, s. 46]. Bu baxımdan şəhər folklor mühitinə aid edilə bilər. Onu da qeyd edək ki, uzun illər meyxana folklor janrı hesab olunmasa da, bu fikirlər yanlışdır. Çünki folklorun poetik strukturu bu iddiaları inkar edir. Şifahi xalq ədəbiyyatı şifahi söz sənəti olması etibarilə meyxananı da öz arealına alır. Bu barədə N.Tağısoy, Z.Zakariyya göstərirlər ki, meyxana folklor olmaqla, xalq təmsilçiləri tərəfindən yaradılan sənət deməkdir [15, s. 66].

Meyxanalar eyni zamanda satira və yumor əsasında daha qabarıq şəkildə diqqət çəkdiyindən bu örnəklərdə zarafatlaşmalar, dolamalar, cırnatmalar, atmacalar kifayət qədər çoxdur. Xüsusilə meyxana deyişmələrində xarakterik olaraq bu kimi janra çevrilən davranış formulu açıq müşahidə olunur. Böyük şair Əliağa.Vahid Bağır Cabbarzadə [15, s.193] ilə deyişməsində bir bənddə, demək olar ki, mövzumuzu əhatə edir:

Dövlətin yedin, düşdün yoxsulluğa,
Gir qəbirə, ölgünən biryolluğa,
Ya rüşvət ver, yazdır özün qulluğa,
Sən də get al rüşvətini, gülni vur! [7, s. 211].

Bu kontekstdə mövzumuzla əlaqəli misraları aydın görmək olur:

**“**Dövlətin yedin, düşdün yoxsulluğa” (atmaca (fərdi-sosial kontekst);

“Gir qəbirə, ölgünən biryolluğa” (cırnatma və dolama (fərdi-ictimai kontekst);

“Ya rüşvət ver, yazdır özün qulluğa,
Sən də get al rüşvətini, gülni vur” (zarafat və atmaca, ictimai-siyasi kontekst).

B.Cabbarzadə başqa bir deyişmədə cırnatma və atmacadan istifadə edir:

Gəl, bu nəsihətindən tullayalım bir yana,
Qorxum odur ki, məni axır salasan qana.
Möhtəkirə, yüz desən, gəlməyəcək imana,
İşim olubdur fəğan, gəl, gəl, ay evi dağılmış! [7, s. 214].

Mövzumuzla əlaqəli misralara bu bəndin iki misrasında rast gəlirik:

“Gəl, bu nəsihətindən tullayalım bir yana” (cırnatma, fərdi-ictimai kontekst);

“Qorxum odur ki, məni axır salasan qana” (atmaca, ictimai-siyasi kontekst) və s.

Göründüyü kimi, meyxanaların şəhər folklor mühitinə aidliyi etibarilə funksionallığında müşahidə olunan bir funksiyası da zarafat, dolama, cırnatma və atmacalarda təcəssüm olunur. Janr daxilinə yerləşən bu kiçik janrların haqqında səciyyəvi olaraq tədqiqatın həcmi baxımından seçdiyimiz bu nümunələrlə bu aspektdə fikrimizi yekunlaşdırırıq.

Şəhər folklor mühitində mərasimlərin şəhər tipini də müşahidə etməmək olmur. Misal üçün, əgər Novruz mərasimləri geniş kompleks olaraq şərq və türk xalqlarının etnokulturoloji dəyərlərini özündə cəmləyirsə, ən müxtəlif ərazilərə

yayılması [6, s. 150-154] bu mərasimlərin şəhər folkloruna bağlılığını inkar edir. Ancaq eyni bayram və mərasimlərin şəhər meydanlarında, geniş prospekt və meydanlarda təntənəli şəkildə qeyd olunması bu bayramın şəhərləşmə, mərkəzləşmə xarakterini də meydana çıxarır. Təbiidir ki, burada mərasim folkloru, musiqi folkloru kimi sahələrə aid poetik məsələlər də özünü göstərir. Əlbəttə, biz bu kontekstdə Novruz mərasimlərindən geniş danışmaq fikrində deyilik. Sadəcə ona diqqət çəkmək istəyirik ki, şəhər meydanlarında keçirilən mərasimlərdən "Kos-Kosa" tamaşası, "Kəndirbaz", "Zorxana", "Gözbağlayıca" və s. bu kimi xalq oyun və tamaşalarının süjetində mövcud olan bir çox əyləncəli məzhəkə məzmunu mövzumuzu da özündə proyeksiyalandırır [13, s. 111, 109, 204, 89] və s.

Novruzda göstərilən tamaşalar əsasən meydan tamaşası adı altında ümumiləşdirilir.

Əvvəldə meydan tamaşalarından bəhs etmişik, eyni zamanda burada məqsəd meydan tamaşalarını təqdim etmək deyil, bu tamaşaların şəhər tipini müəyyən etməkdir. Məhz bu tamaşaların şəhər folkloruna müəyyən qədər aidliyi şəhər meydanlarında geniş şəkildə göstərilməsində meydana çıxır. Bu tamaşaların kütləvi izdihamlar ilə şəhər meydanlarından hətta son illərdə kütləvi şəkildə yayımlanması da bu bayramın şəhər tipini aydın göstərir. Hələ 1967-ci ildə görkəmli dövlət xadimi Ş.Qurbanovun təşəbbüsü ilə Novruz bayramı dövlət bayramı səviyyəsinə qaldırılarkən bu ənənənin əsası qoyuldu. Ensiklopedik qaynaqda göstərilir ki, bu bayram Azərbaycanın bütün bölgələrində, xüsusən Bakı şəhərində ümumxalq şənliyi səviyyəsinə qaldırıldı. Möhtəşəm Qız qalasının ətrafı Novruz bayramının qeydolunma mərkəzinə çevrildi. Axın-axın insanların toplaşdığı Qız qalası qarşısında xalq oyun-tamaşaları böyük rəğbət hissi ilə qarşılandı. Həmin ilin Novruz bayramına Azərbaycan mətbuatı da xüsusi səhifələr ayırdı. O vaxt yeganə olan Azərbaycan Dövlət televiziyası və radiosu verlişlərini bilavasitə Novruz bayramına həsr etdi. Vertolyotlardan "Yaz - Novruz bayramınız mübarək!" yazılmış vərəqələr Bakının küçə-meydanlarına səpələndi. Ağpaltarlı Bahar qızı keçdiyi yerlərdə hamı tərəfindən gül-çiçəklə qarşılandı. Dənizkənarı bulvarda, şəhər meydanlarında bayram yarmarkaları təşkil olundu. Bakı əhalisi Şıx çimərliyində Novruz bayramı - ağacəkmə bayramı iməciliyi keçirdi [13, s. 128].

Bu baxımdan şəhər folklor mühitinə bu kimi bağlılığı inkar etmək mümkün deyil və bu mərasimlərdə mövzumuza aid davranış formulundan meydana gələn janr içində yerləşən törədilmə janrlar da işarələnə bilir.

Şəhər folklor mühitinə aid olan janrlardan biri də, təbiidir ki, küçə musiqisi, şəhər meydanlarında izdiham qarşısına enib müəyyən qarşılıq məqsədiylə yayılmaqda olan sərbəst ifaçılıq, bəzən də öz mənəvi zövqünü bu arealda təmin etməyə meylli şəxslərin mahnı, rəqs və s. bu kimi hərəkətləri, ciddi və gülməli ritmik və pantomimiki davranış formulu təşkil edir [ 10, s. 14].

Küçə musiqisi ölkənin paytaxtında geniş yayılıb. Hətta bu mövzuda 100-dən çox musiqiçinin iştirak etdiyi "Xəzərin sahilində" adlı festival belə keçirilib [2, s. 10]. Yalnız yerli əhalinin deyil, ölkəmizin paytaxtına axışan turistlərin belə davra-

nış nümayiş etdirməsi də şəhər folklor mühitinin inkişafında əhəmiyyətli rol oynayır. Hətta qeyd etmək lazımdır ki, turizmin yayıldığı ərazilərdə əsas tələblərdən biri də həmin ölkənin folkloru haqqında məlumatların əldə olunması və dinamik istifadəsidir. Əlbəttə, bu metodoloji münasibət yalnız folklor musiqisini küçələrdə nümayiş etdirmək üçün nəzərdə tutulmur, ancaq belə fəaliyyət növü də praktiki olaraq səfər müddətində spontan şəkildə meydana çıxır. İ.Hüseynov və N.Əfəndiyeva qeyd edirlər ki, ənənələr, sənət əsərləri, folklor kimi dəyərlər də turistik cəlbediciliklər sırasında qəbul edilməkdədir [5, s. 304].

Aydındır ki, şəhərin küçə və meydanlarında hər gün müşahidə olunan mahnı ifaçılığı, instrumental ifaçılıq, rəqs və s. kimi müxtəlif məzhəkə personajlarına məxsus hərəkətlər zarafatlaşmalar, dolamalar, cırnatmalar, atmacalar kimi davranış modellərini özündə müxtəlif formalarda təzahür etdirir. Çünki kütləvi fəaliyyətdə bu kimi davranış tərzi insan təbiətinin təbii reaksiyaları kimi meydana gəlir.

Beləliklə, şəhər folklor mühitində davranış formulundan törəyən kiçik janrlar, yəni zarafatlaşmalar, dolamalar, cırnatmalar, atmacalar əsas janrların tərkibində inkişaf edir. Diqqətimizdə olan bir çox mətnlərdə bu kimi nümunələri təqdim etdik. Bu mövzu çox geniş olduğu üçün bir çox saysız-hesabsız nümunələri də ümumiləşdirərək diqqət mərkəzinə çatdırmağa çalışdıq. Ümid edirik ki, bu tədqiqat işi öz yeniliyi ilə şəhər folklor mühitinin inkişafında müəyyən əhəmiyyətə malik olacaqdır.

**ƏDƏBİYYAT**

1. Atalar sözləri. Tərtib edəni: M.Yaqubqızı. – Bakı: Nurlan, – 2013, – 476 s.
2. Dostəli Ə. Xəzərin sahilində möhtəşəm festival // "Xalq qəzeti", – 2024, – 28 iyul, s. 10.
3. El-oba oyunu, xalq tamaşası / Tərtib edən: E.Aslanov. – Bakı, İşıq, –1984, – 275 s.
4. Ədəbiyyatşünaslıq terminləri lüğəti / Tərtib edəni: Ə.Mirəhmədov. – Bakı: Azərnəşr, – 1965, – 150 s.
5. Hüseynov İ, Əfəndiyeva N. Turizmin əsasları. Dərslik / İ.Hüseynov, N.Əfəndiyeva. – Bakı: "Mars-Print" nəşriyyat-poliqrafiya müəssisəsi, – 2007, – 442 s.
6. Xürrəmqızı A. Azərbaycan mərasim folkloru/ A.Xürrəmqızı. – Bakı: Səda, – 2002, – 209 s.
7. Meyxanalar. Oturmusan səmavərdən yuxarı. – Bakı, Yazıçı, – 1993, – 288 s.
8. Molla Nəsrəddin lətifələri (təkrar nəşr). Tərtib edən: M.H.Təhmasib. – Bakı: Öndər nəşr, – 2004, – 304 s.
9. Müşfiq Ş. Küçə musiqiçiləri: onlar kimdir? // 525-ci qəzet. – 2019. – 30 mart. – s.14
10. Nəbiyev A.M. Azərbaycan xalq ədəbiyyatı. II hissə. Bakı: Elm, 2006, 649 s.
11. Nəbiyev A. El nəğmələri, xalq oyunları / A.Nəbiyev. – Bakı: Azərnəşr, –1988, –168 s.
12. Novruz Bayramı Ensiklopediyası. – Bakı: Şərq-Qərb, – 2008, – 208 s.
13. Rəhimli İ. Azərbaycan teatr tarixi / İ.Rəhimli. – Bakı: Çaşıoğlu, – 2005, – 864 s.
14. Tağısoy N, Zakariyya Z. Meyxanənin poetikası / N.Tağısoy, Z.Zakariyya. – akı: Çaşıoğlu, – 2011, – 456 s.